

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 26 (22.937)

8 fevral 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.



## Quruculuq tədbirləri müasirləşmədə başlıca amillərdən biridir

***Muxtar respublikamızda həyatın ayrılmaz ritminə çevrilən tikinti-quruculuq işlərinin coğrafiyası böyüdükcə regionumuzun siması daha da gözəlləşir, mövcud çətinliklər aradan qaldırılır, insanların sosial-rifah halı yüksəlir. Bu proseslərin daimi xarakter alması bütün bölgələrimizə müasirlik bəxş edir. Bu gün həyata keçirilən tədbirlərin paytaxt şəhərimizdən tutmuş rayon mərkəzlərini, ən ucqar dağ və sərhəd məntəqələrini əhatə etməsi qədim yurd yerinə bağlılığın, sabaha cavabdehlik hissinin, insanların layiq olduğu səviyyədə yaşamasına qayğı amalının ifadəsi kimi diqqəti çəkir. Bu baxımdan 2017-ci il də muxtar respublikamızın tarixinə uğurlu illərdən biri kimi yazılıb. Şərur rayonu da həmin inkişafın ön sırasındadır. Bəhs olunan dövrdə bölgədə həyata keçirilən inşaat tədbirlərinə diqqət yetirsək, xeyli tikinti-quruculuq işlərinin görüldüyünün şahidi olarıq.***



Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, ötən il iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 77 milyon 563 min manat və ya 2016-cı illə müqayisədə 0,6 faiz çox vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə qoyulan investisiyanın dəyəri 1,4 faiz artaraq 73 milyon 571,2 min manat olub.

Bu dövrdə, ənənəvi olaraq, təhsil sahəsi diqqət mərkəzində saxlanılıb. Belə ki, Şərur şəhərində 1020 şagird yerlik 2 nömrəli, Çəmənli kəndində 380, Qarahəsənli və Ələkli kəndlərinin hər birində 234, Ərəbyengicədə 192 şagird yerlik tam orta məktəb binaları istifadəyə verilib. Təhsil ocaqlarında müasir iş şəraiti yaradılıb. Məktəb binaları informasiya-kommunikasiya texnologiyaları, idman qurğuları, dərslik və bədii ədəbiyyat, metodik vəsaitlərlə təchiz olunub. Bütün bunlar isə həmin tədris müəssisələrində təhsil səviyyəsinin yüksəldilməsinə öz təsirini göstərib.

Bəhs olunan dövr ərzində rayonda kənd və xidmət mərkəzlərinin tikintisinə də ciddi önəm verilib, Arpaçayda, Ərəbyengicədə, Qarahəsənlidə kənd və xidmət mərkəzləri, Ələklidə xidmət mərkəzi və mərasim evinin tikintisi başa çatdırılaraq istifadəyə verilib. Bundan başqa, Ələklidə musiqi məktəbi və Ərəbyengicədə həkim ambulatoriyası üçün yeni binalar inşa olunub.

Rayon Mərkəzi Xəstəxanasında, Şərur şəhərindəki Heydər Əliyev prospektində yerləşən 35 nömrəli 60 mənzilli yaşayış binasında və Dəmirçi kəndində futbol meydançasında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

Hazırda Yengicə kəndindəki qədim hamam binası, Şərur şəhərində Tarix-Diyarşünaslıq Muzeyi və Qarxun kəndi ərazisində Daxili Qoşunlar üçün nəzərdə tutulmuş infrastruktur binalarında tikinti və yenidənqurma işləri davam etdirilir.

Bəhs olunan dövrdə rayon Yol Təmir-Tikinti İdarəsi inşaatçılarının da bölgədə həyata keçirilən quruculuq tədbirlərində böyük əməyi olub. Belə ki, 5,3 kilometr uzunluğunda Ələkli, 2,9 kilometr məsafədə Qarahəsənli kənd avtomobil yoluna, 9,7 kilometr uzunluğunda Dərvişlər, Arpaçay, Çəmənli və Babəki kəndlərini birləşdirən avtomobil yollarına, Aşağı Aralıq və Yuxarı Aralıq kəndlərini, 10,8 kilometr məsafədə Vərməziyar-İbadulla-Qışlaqabbas-Ərəbyengicə kəndlərini birləşdirən avtomobil yollarına isə asfalt örtüyü salınıb. Ümumilikdə, 2017-ci ildə kənd yaşayış məntəqələrinin avtomobil yollarında 22,2 kilometr uzunluğunda asfaltlama işləri aparılıb. 13,7 kilometr uzunluğunda əsaslı, 8,5 kilometr uzunluğunda kəndarası, 24,2 kilometr uzunluğunda isə kənddaxili yollarda cari təmir işləri aparılıb, çınqıl və asfalt qırıntısı verilib.

İl ərzində rayonda elektrik enerjisi ilə təchizat sahəsində də müəyyən işlər görülüb. Belə ki, rayonun yaşayış məntəqələrini, istehsal və qeyri-istehsal sahələrini dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin etmək üçün 26 transformator əsaslı, 70 transformator cari təmir olunub, 3 müxtəlif gücə malik yeni transformator quraşdırılıb, 50,6 kilometr uzunluğunda 10 kilovoltluq, 60,7 kilometr uzunluğunda 0,4 kilovoltluq hava xətti əsaslı təmir edilib, 5,5 kilometr uzunluğunda yeni və 1650 metr uzunluğunda yeraltı kabel xətti çəkilib. İstismar müddəti başa çatmış elektrik dirəkləri yeniləri ilə əvəz edilib, 505 mənzilə yeni sayğac quraşdırılıb, 838 ədəd sıradan çıxmış sayğac dəyişdirilib.

Ötən il ərzində rayon Qaz İstismar İdarəsinin fəaliyyəti də qənaətbəxş olub. Belə ki, il ərzində 150 abonentə və 15 qeyri-yaşayış sahəsinə yeni qaz xətti çəkilib, 125 qaz sayğacı yenisi ilə əvəz edilib.

Bəhs olunan dövrdə rayonun Ələkli, Çəmənli, Arpaçay, Qarahəsənli kəndlərində aparılan abadlıq işlərinə uyğun olaraq rabitə şəbəkəsi tamamilə yenidən qurulub və bir sıra kəndlərdə köhnətipli ATS-lər yeniləri ilə əvəz olunub. Bu dövrdə Rabitə İdarəsi tərəfindən təmir-tikinti işləri zamanı 370 ədəd rabitə dirəyi dəyişdirilib. 36 min 620 metr müxtəlif tutumlu kabellərdən istifadə olunub. 14 min 350 metr yeraltı kabel, 22 min 270 metr uzunluğunda isə hava xətti çəkilib. Həyata keçirilən tədbirlər sayəsində kənd ATS-lərinin tutumu 704 ədəd artaraq 16996-ya çatdırılıb.

Onu da qeyd edək ki, bölgədə həyata keçirilən tədbirlər tikinti-quruculuq işləri ilə məhdudlaşmır. Müxtəlif sahələrin inkişafına göstərilən dövlət qayğısı həmin sahələrdə də yeniləşməni daha yüksək müstəviyə çıxarıb. Bu isə, təbii ki, insanların yaşam tərzinə öz müsbət təsirini göstərib.

✍ **Muxtar MƏMMƏDOV**

***Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə muxtar respublikanın Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər ötən ay ərzində də davam etdirilib.***

## Naxçıvanda miqrasiya proseslərinin idarəolunması diqqət mərkəzindədir

Yanvar ayı ərzində xidmət tərəfindən muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən mövcud qanunvericiliyin tələblərini pozmuş 28 əcnəbi aşkarlanıb. Onlardan 24-ü barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərk etmə, 4-ü barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 625 müraciət daxil olub. Bu müraciətlərdən 72-si əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Yanvar ayı ərzində olduğu yer üzrə qeydiyyatla bağlı 553 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərdən 234-ü elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.

## "Sürət Karqo" fəaliyyətə başlayıb



Muxtar respublikada sahibkarlığın inkişafına göstərilən dövlət qayğısının ifadəsidir ki, yeni xidmət sahələrinin sayı getdikcə artır. Bu da insanların müxtəlif tələbatlarının ödənilməsinə müsbət təsirini göstərir. Ona görə də Naxçıvan şəhərinin Həsən Əliyev 2 ünvanında "Sürət Karqo" adlı yeni sahibkarlıq obyektinin fəaliyyətə başlaması naxçıvanlılar tərəfindən minnətdarlıqla qarşılanıb.

"Sürət Karqo" Bakı-Naxçıvan-Bakı marşrutu ilə bağlamaların sürətli və etibarlı şəkildə ünvana çatdırılması ilə məşğul olur. Ünvana çatdırılan 5 kiloqrama qədər bağlama, zərf, əşya üçün 5 manat məbləğində ödəniş edilir. 5 kiloqramdan artıq yükün hər kiloqramı üçün isə 1 manat ödənilir. Göndərilən bağlama, zərf, əşya bir gün ərzində ünvana pulsuz çatdırılır.

Onu da qeyd edək ki, "Sürət Karqo"nun Bakı şəhərindəki ofislərində də Bakı-Naxçıvan marşrutu ilə yükdaşıma həyata keçirilir.

## Şəkərabad kəndində su və kanalizasiya sistemləri qurulur

Su təsərrüfatı sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri insanları sağlam və ekoloji cəhətdən təmiz içməli su ilə təmin etməkdir. Bu gün muxtar respublikada içməli su və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində kompleks tədbirlər görülür. Babək rayonunda da "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində həyata keçirilən tədbirlər, bu mənada, mühüm əhəmiyyətə malikdir.

Xatırladaq ki, ötən ilin avqust ayında bu işlər rayonun Şıxmahmud və Xəlilli kəndlərində də uğurla həyata keçirilib, hər iki kənddə müasir su və kanalizasiya sistemləri qurularaq sakinlərin istifadəsinə verilib. Son günlərdə isə Şəkərabad kəndində "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" 3-cü layihə çərçivəsində bu işlərə başlanılıb. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mühəndisi Telman Rzayevin sözlərinə görə, kənddə müxtəlif diametrli borularla içməli su və kanalizasiya xətləri çəkiləcək. Əhali təmiz və keyfiyyətli içməli su ilə təmin olunacaq. Hazırda kanalizasiya sistemində əsas xətlərin çəkilişi davam etdirilir. Su sistemində isə bu işlə yanaşı, ev birləşmələri aparılır, sayğaclar quraşdırılır. Mühəndis bildirdi ki, cari ilin may ayında işlərin yekunlaşdırılması nəzərdə tutulub. Yeni su xətlərinin və kanalizasiya sistemlərinin qurulması kənd sakinlərinin sevincinə səbəb olub.

**Xəbərlər şöbəsi**

...Yollara baxımsızlıq xroniki xəstəlik şəklini almışdır. Nə qədər acınacaqlı olsa da, deməliyik ki, əksər kəndlərimizin ayağından başına getmək, yaxud bir məhəllədən o birinə keçmək üçün mütləq palçığa batmalısan. Bu da onu göstərir ki, yolların da "dərdi" var. Babək rayonunun Qaraxanbəyli, Cavidabad, Tumbul, Vayxır, Xal-xal və digər kəndlərinin yolu baxımsızlıq üzündən yararsız hala düşmüşdür.

Teyvaz, Ərəfsə, Ləkətağ, Gal və Şurud kəndləri Culfa rayonunun şəfalı guşəsində, uca dağların, yalçın qayaların qoynunda yerləşir. Amma nə fayda? Həmin kəndlərin yolu bərbad vəziyyətdədir.

## Naxçıvan dünən

### Yolların da "dərdi" var





Ordubad rayonunun Biləv, Tivi, Bist, Nəsirvaz kəndlərinə gedən yolun da vəziyyəti ürəkaçan deyil. Neçə illərdir ki, həmin yollara maşınlarla qum-çınqıl daşınıb tökülür. Ancaq nə olsun. Min bir əziyyətlə daşınan qum-çınqılı yağış-qar suları yuyub aparıb. Ordubad-Naxçıvan yolunun da bir hissəsi bərbad vəziyyətdədir. Belə misalların sayını artırmaq da olar.

...Kənd yolları bizi isti ocağımıza, nağıllı dünyamıza, xeyirə, bərəkətə aparan yoldur. Odur ki, gəlin yolların abad və rahat olmasına hamılıqla cavabdeh olaq...

*"Şərq qapısı" qəzeti*
*10 mart 1992-ci il*

## və bu gün

### Müasirliyin, mədəniyyətin, rahatlığın simvolu yollar



***Ölkəmizin davamlı inkişafına, xalqımızın rifahının yüksəlişinə xidmət edən, sürətlə yenilənən və müasirləşən avtomobil yolu təsərrüfatı müstəqil dövlətçiliyimizin çox mühüm nailiyyətlərindəndir. Bu sahədə ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı Prezidentimiz cənab İlham Əliyev uğurla davam etdirərək dövrün tələblərinə uyğun olaraq daha da zənginləşdirib. Ötən müddət ərzində ölkəmizin avtomobil yolları şəbəkəsi əhəmiyyətli dərəcədə genişlənib, yol örtüyünün keyfiyyəti müasir dünya standartlarına uyğunlaşdırılıb, yollara xidmətin səviyyəsi yüksəldilib.***

Dövlət başçısının imzaladığı sərəncamlara, qəbul olunan dövlət proqramlarına uyğun olaraq yol-nəqliyyat infrastrukturunun yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində kompleks tədbirlər görülmüşdür. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları təsdiq edilərkən qarşıya qoyulan başlıca hədəflər arasında yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara çatdırılması xüsusi yer tutub. Ölkəmizdə, eləcə də muxtar respublikamızda bu sahədə regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına daxil edilmiş layihələr də uğurla icra edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yol infrastrukturunun əhəmiyyətindən bəhs edərək demişdir: ***"Yol tikintisi Azərbaycan dövlətinin iqtisadi qüdrətinin və vətəndaşlarına göstərdiyi qayğının təzahürüdür. Bu sahədə reallaşdırılan layihələrin əsas hədəfi muxtar respublikanın sosial-iqtisadi inkişafını təmin etməkdir…"***



#### *Regionumuzun əvvəlki yolları*

Yollardan söz düşəndə gözlərim qarşısında müstəqillik illərindən əvvəlki yollar canlanır. Sovet imperiyasının əsarətinə məruz qalan 15 müttəfiq respublikadan biri olan Azərbaycanda abad yolu yalnız mərkəzi şəhərlərdə görmək olardı. Rayon, qəsəbə və kəndlərimizin digər infrastrukturu kimi, yolları da miskin bir vəziyyətdə idi. İnsanlara gözəl həyat, bolluq, firavanlıq vəd edən rus imperiyası, əslində, onların heç birini həyata keçirmək fikrində belə, deyildi. Bunu həmin dövrdə bugünkü qədər dərk etmirdik sanki. Müasir həyat tərzimizdən bir anlıq o illərə qayıdarkən bu, açıqca görünür. O dövrdə yaşayan insanlar yaxşı xatırlayarlar, övladlarımız uçuq-sökük məktəblərdə təhsil alırdı, özümüz heç bir şəraiti olmayan binalarda işləyirdik, xəstəxanalar, uşaq bağçaları bugünkülərlə müqayisəedilməz vəziyyətdə idi. Və yollarımız da eləcə. Çala-çuxur, toz-torpaqlı, bəzən keçilməz yollar onu görənlərin xatirəsindən heç vaxt silinə bilməz. Ucqar kəndlərdən rayon mərkəzlərinə, şəhərə gəlmək saatlarla vaxt aparırdı. Hələ bu yollar kəskin kontinental iqlimə malik muxtar respublikamızın dağlıq rayonlarında qış fəslində daha çox problemlər yaradırdı. İnsanlar ağır xəstələrini vaxtında həkimə çatdıra bilmirdilər. Xatırlayıram ki, neçə-neçə insan yolların keçilməzliyi ucbatından vaxtında xəstəxanaya çatdırıla bilməyib, elə yoldaca həyatını itirmişdi. O zaman əksər uşaqların xəstəxanalarda deyil, evlərdə doğulmasının, bəzən ana ölümü ilə nəticələnən fəlakətlərin bir səbəbi də yollarımız idi. Elə ki qış gəldi, avtomobil qəzalarının da sayı artırdı. Neçə insan yol infrastrukturunun aşağı səviyyədə olması səbəbindən qəzaların qurbanı olmuşdu. Ucqar kəndlərimiz var idi ki, qışda oraya günlərlə marşrut işləmirdi. Çünki yolların qarı təmizlənmirdi. Həftələrlə onsuz da kasad olan mağazalara ərzaq gətirmək mümkün olmurdu. İnsanlar ehtiyacları olan ərzağı ala bilmirdilər. Əlacsız qalıb öz aralarında pul yığıb, siyahı tutub bir nəfəri səhər obaşdan aşağı kəndlərə yola salırdılar ki, zəruri ərzaqları aldırsınlar. Axşamçağı isə bir neçə nəfər kəndin ayağına gedib, müxtəlif qoşqu vasitələrilə ərzağı köməkli olaraq kəndə gətirirdilər. Kimsə kənddən xəstəxanaya, nə isə bir iş dalınca Naxçıvana, Bakıya getməli idisə, yay, qış, hökmən bir gün əvvəl evindən çıxıb Naxçıvan şəhərinə gəlməli, həmin gecəni orada bir qohum evində qalmalı idi ki, tezdən vaxtında işinin dalınca gedə bilsin.

Qışda eyibi bir qədər örtülən yolların elə ki yaz gəldi, qar əriməyə başladı, gəl, halını gör. Palçıq, necə deyərlər, dizə çıxırdı. Rayon mərkəzində işləyənlər, şəhərə, bazara gedənlər kənddə avtobus dayanacağına qədər köhnə ayaqqabılarla gəlib orada təzəsi ilə dəyişərək avtobusa əyləşirdilər. Ailələrdə ən çox vəsait ayaqqabı alınması üçün ayrılırdı. Çünki gündə dəfələrlə yuyulan ayaqqabılar keyfiyyətini itirir, yararsız vəziyyətə düşürdü. Bir toy, yas mərasimi olanda insanlar nə qədər əziyyət çəkirdilər, bunu görənlər bilir. Adam gələn qonaqlardan da utanırdı. Elə o dövrdə yaşayanların toylarının videokasetləri də ozamankı yollarımızın vəziyyətini təsdiq edən faktlardan biridir. Bu kasetlər övladlarımıza keçmiş gün-güzəranımız haqqında çox məlumatlar verə bilər.



Elə ki yay oldu, yollardan maşın keçərkən qalxan toz-dumandan göz gözü görmürdü. Bu toz-torpaq evlərimizi, üst-başımızı bərbad vəziyyətə salmaqla yanaşı, həm də nəfəsimizlə ciyərlərimizə dolurdu. Rayon, qəsəbə, kəndlərin palçıq, toz-torpaq ucbatından çirkli görüntüsü isə heç vaxt onu görənlərin yaddaşından silinə bilməz.

Beləcə illər ötür, yollarımız isə ildən-ilə daha da bərbadlaşırdı. İnsanların min bir çətinliklə üzləşməsi isə heç kimi əsla narahat etmirdi. Sanki onlar bu həyat tərzinə məhkum olunmuşdular.



#### *Keçmişdən bu günə*

Haqqında söhbət açdığımız yollarımızın acınacaqlı vəziyyətindən bizi təxminən 30 ilədək bir zaman fasiləsi ayırır. Yollar barədə tez-tez söhbət açılır. O dövrləri yaşayanlar yollarımızın nə vaxtsa bugünkü vəziyyətini xəyallarına belə, gətirə bilmədiklərini, gənclərsə bu yolların keçmişi barədə söhbətlərə inanmaq istəmədiklərini söyləyirlər. Təbii ki, bu gün muxtar respublikamızın ən ucqar kəndlərindən tutmuş rayon mərkəzlərinə, qəsəbə və şəhərlərədək uzanan abad, yaraşıqlı yolları görən gənc həmin yolların vaxtilə keçilməz olduğuna necə inana bilər? Lakin bu bir reallıqdır ki, uzun illərdir, yollarımızın abadlaşdırılması, müasir standartlara cavab verməsi üçün ardıcıl tədbirlər görülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanda yol tikintisi sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək demişdir: ***"Naxçıvan şəhərini digər şəhərlərlə birləşdirən gözəl və çox keyfiyyətli yollar salınıb... Naxçıvan-Culfa, Naxçıvan-Şahbuz, Naxçıvan-Sədərək yolları ən yüksək standartlara cavab verir... Kənd yollarının tikintisi də uğurla gedir və bu proses davam edəcək".***

Muxtar respublikanın qonşu ölkələrlə iqtisadi əlaqələrinin daha da genişləndirilməsində, beynəlxalq yük və sərnişin daşımalarında əhəmiyyətli rol oynayan magistral yolların yenidən qurulması istiqamətində son illər bir sıra tədbirlər həyata keçirilib. Belə ki, 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək, 34 kilometrlik Naxçıvan-Culfa və 88,8 kilometrlik Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolları yenidən qurulub. Ötən müddət ərzində ölkə başçısının müvafiq sərəncamlarına uyğun olaraq Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi, Çeşməbasar-Boyəhməd, Hacıvar-Vayxır-Sirab, Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi və Düylün-Çənnəb-Üstüpü-Məzrə avtomobil yolları yenidən qurularaq istismara verilib.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkəti və onun tabeliyində olan yol istismar idarələrinin kollektivləri ötən il Şərur rayonunun Aşağı Aralıq, Ordubad rayonunun Sabirkənd, Culfa rayonunun Dizə, Kəngərli rayonunun Qarabağlar, Babək rayonunun Payız, Şıxmahmud, Gərməçataq və Şıxmahmud-Xəlilli yaşayış məntəqələrini Naxçıvan şəhəri ilə birləşdirən avtomobil yolunda, Uzunoba çimərliyi ətrafında, Naxçıvan-Şahbuz magistralında, Sədərək Rayon Mədəniyyət Evi istiqamətindəki avtomobil yolunda müxtəlif təyinatlı əsaslı təmir işləri aparıblar. Həmçinin adıçəkilən rayonların hər birinin daxili yolları da nəzarətdə saxlanılıb, ehtiyac olan hissələrdə lazımi işlər görülüb. Artan tələbata uyğun olaraq müasir yol-nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorundan səmərəli istifadənin nəticəsi olaraq 2017-ci ildə muxtar respublikamızda 70 kilometrlik yeni asfalt yollar salınıb, 12 körpü tikilərək və ya yenidən qurularaq istifadəyə verilib.

Kəndlərin yol infrastrukturunun tamamilə müasirləşdirilməsi yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinin, eləcə də kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olub. Qış aylarında, xüsusilə ucqar kəndlərə hərəkətin fasiləsizliyinin təmin edilməsi, yolların qar və buzdan təmizlənməsi üçün istifadə olunan texnikaların saz vəziyyətə gətirilməsi, ehtiyat hissələri ilə təminat, qum ehtiyatının yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilib. Leysan yağışları zamanı və soyuq qış mövsümündə avtomobil yollarında hərəkətin intensivliyinin təmin edilməsi məqsədilə bütün texnikalara baxış keçirilib, fəhlə və mexanizatorlar mövsümlə əlaqədar iş paltarları ilə təmin olunublar.

Ümumilikdə, 12 avtoqreyder, 29 özüyükboşaldan avtomaşın, 8 buldozer, 1 qumsəpən avtomaşın, 3 ekskavator, 5 avtoyükləyici, 2 qarkürəyən və 1 qartəmizləyən maşın muxtar respublikamızın ayrı-ayrı rayonlarının, ucqar dağ və sərhəd kəndlərinin avtomobil yollarında yarana biləcək hər hansı bir maneənin vaxtında aradan qaldırılması üçün tam hazır vəziyyətə gətirilib. Həyata keçirilən kompleks tədbirlər nəticəsində muxtar respublikamızda mövcud olan 274 kilometr dövlət əhəmiyyətli, 1199 kilometr isə yerli əhəmiyyətli avtomobil yollarında hərəkətin intensivliyi tam təmin olunub.

Yollarımızda uzun illərdən bəri görülən işlər muxtar respublika iqtisadiyyatının inkişafının göstəricisi, müasirliyin ən yüksək səviyyədə olmasının və region sakinlərinin rifahının təzahürüdür.

#### *Son söz*

Abad yollara baxarkən bir zamanlar bərbad olan yollarımız xatırlanır. Yol mədəniyyətdir, – deyiblər. Bu, həqiqətən, belədir. Kiçik bir kənddən tutmuş böyük şəhərlərədək hər biri haqqında ilkin məlumatı onun yolları verir. Həm yaxşı, həm də pis mənada. Bu gün muxtar respublikamızın hansı rayonuna, qəsəbəsinə, kəndinə üz tutsaq, bizi abad yollar qarşılayıb digər abad ünvanlara aparacaqdır. O ünvanlarda bir insanın layiq olduğu, mükəmməl həyat tərzi üçün nə lazımdırsa, hamısı nəzərdə tutulub və tətbiq olunub. Kilometrlərlə uzanan yol kənarlarına illər öncə iməciliklər yolu ilə əkilmiş fidanlar böyüyüb bir-biri ilə qol-boyun olaraq yollarımızda gözəllik, kölgəlik yaradıb. Yol kənarlarına əkilən güllər bura gələnlərdə Naxçıvan onları gül-lə-çiçəklə qarşılayır hissini yaradır. Bu günlərdən çox da uzaq olmayan keçmişə nəzər salan insanlar gözlərinə inanmaya bilərlər. Çünki 70 ildə arzulayıb görə bilmədikləri 30 ilə yaxın bir dövrdə həyata keçib. İndi Naxçıvan MDB məkanında ən çox inkişaf etmiş regiondur. Qonaqlarımızı alnıaçıq qarşılayıb, fəxrlə kəndlərimizi, şəhərlərimizi gəzdirdiyimiz, böyük qürur hissi ilə yola saldığımız məmləkətimizdir Naxçıvan. Bunları görən hər birimiz dünənimizlə bu günümüz arasında "körpü" olmalıyıq. Övladlarımıza ətraflarında gördüklərinin hər birinin dünənini söyləməklə muxtar respublikamızın hansı inkişaf yolu keçdiyini aşılamalıyıq. Elə yollarımız kimi.

**✍ Mətanət MƏMMƏDOVA**

*Ziyalı və zaman*

## Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı

### *Şair Xanəli Kərimlinin poeziyası barədə düşünərkən*

“Bədii ədəbiyyat səslər dünyasıdır. Həyatda hər bir kəsin öz yeriş tempi, öz səsi, ifadə tərzi olduğu kimi, ədəbiyyatda da hər bir qələm sahibinin öz “yerişi”, öz səsi və ifadə tərzi olmalıdır. O sənətkar xoşbəxtdir ki, o, səslər dünyasında öz səsini, “yerişini” və ifadə tərzini yad təsirlərdən qoruyub saxlaya bilir. Ən çətin mənəvi və maddi sıxıntılar qarşısında belə, özgələşmir”.

Filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Naxçıvan Dövlət Universitetinin müəllimi Xanəli Kərimli bu azlığa daxil olanlardan biridir və həmin fikir də ona məxsusdur. Ötən əsrin 80-ci illərində ədəbiyyata gələn, o səslər dünyasında öz səsini, “öz yerişini” və ifadə tərzini yad təsirlərdən qoruyub saxlaya bilən, ən çətin mənəvi və maddi sıxıntılar qarşısında belə, özgələşməyən Xanəli Kərimlinin bu qənaəti haqqında düşünərkən akademik İsa Həbibbəylinin sözlərini xatırladım: “Xanəli Kərimli yeni dövr Azərbaycan şeirinin vətəndaşlıq lirikasının əsas yaradıcılarından biridir”.

Xanəli Kərimlinin daha bir sözünü xatırlamalı oluram: “Öz zəmanəsinə mənsub olmayan bir sənətkar heç bir zəmanəyə mənsub ola bilməz”. Zəmanəsinin şairi olan Xanəli Kərimlinin hər hansı bir şeirini oxuduqdan sonra mütləq onunla daxili dialoqa girirəm. Bu günlərdə onun “Payız duyğuları” kitabını, şair haqqında yazılanları yenidən vərəqlədim. Daxilən onunla yenə də həmsöhbət oldum. Şairə öz şeiri ilə sual verdim: – Sən kimsən, Xanəli Kərimli?

*Tanrım kəlamlarla, sözlərlə birgə*
*Göndərdi məni də bu yer üzünə.*
*Ki, yolunu azmış naşükür bəndə*
*Heç vaxt ağ olmasın haqqın üzünə.*

*Mənim yazdıqlarım havayı şeydir,*
*Ovuda bilmədi bircə qəlbi də.*
*Mənim yazdıqlarım haraydır, küydür*
*Nə ayağı burda, nə də qəlbidə.*

Bu sözlər də Xanəli Kərimliyə məxsusdur: Əlinə qələm alan hər bir yazı-pozu adamı, yaxşı şair, yaxşı yazıçı olmaqla yanaşı, yaxşı vətəndaş da olmağa borcludur.

Ədəbiyyatımızın əbədi və əzəli mövzusu olan vətəndaşlıq poeziyası elə bir sərvətdir ki, bu sərvətə, demək olar ki, bütün yaradıcı qələm sahiblərində rast gəlmək mümkündür. Ancaq Xanəli Kərimli özünü bütövlükdə bu mövzuya həsr edib, – desək, yanılmarıq:

*Bəzən soruşuram özüm-özümdən:*
*Mən də bu torpağın övladıyammı?*
*Mən də bu torpağın bir çınqıl daşı,*
*Bir şam işartısı, köz oduyammı?*

Xanəli Kərimli və onun yaradıcılığı ilə tanış olanlar təsdiq edər ki, bu sözlər özündən narazılığın səmimi poetik ifadəsidir. Bu sözlərin arxasında, sözün həqiqi mənasında, Vətənə bağlılıq və borc kimi ülvi hisslər – vətəndaşlıq vəzifəsinə məsuliyyət dayanıb. Deyir ki, xaliqini sevməyən xalqını, xalqını sevməyən xaliqini sevə bilməz. Məni qınayanlar və bəlkə də, tənqid edənlər tapılacaq. Olsun. Əgər bizim ədəbiyyatda “ANA” və “VƏTƏN” mövzularında yazılmış əsərləri tərəzinin bir gözünə, ümumavropa ədəbiyyatında yazılanları o biri gözünə qoysaq, bizim tərəf ağır gələr.



Xanəli Kərimlinin yaradıcılığı barədə “Bir ömrün nağılı” adlı kitabı qələmə almış filosof-alim Sabir Bəşirovun sözləri yadıma düşür: “Vətəni Vətən edən insanlardır – doğma, əziz, yaxın insanlar, səni anlayan dəyərli dostlar, tanışlardır, şəxsən tanımadığın, ancaq əqidəcə, məsləkcə sənə yaxın insanların... varlığıdır. Bir az geniş mənada doğma Vətənin bütün övladları hər bir adama yaxındır – axı biz bu ölkənin vətəndaşlarıyıq!..”

Xanəli Kərimlinin şeirlərinin, poemalarının, bayatılarının böyük bir hissəsi Vətən mövzusundadır və gəlinən qənaət öz doğma yurdunu, torpağını canından artıq sevən hər bir azərbaycanlının qəlbində doğulan munis duyğulardır. Bu duyğular bəzən hayqırır, bəzən kövrəlir, qılınc olur bəzən də. Bu şeirlərdə tribunallıq, pafos da təbiidir:

*Bir vaxt Gündoğandan Günbatanacan*
*Qılınc sıyırmışam, başlar kəsmişəm.*
*İndi üzün dönsün, ay gidi dünya,*
*İndi gör kiminlə cəngə düşmüşəm.*

Şair vətənpərvərliyi onun bu şeirində ulu tarixin uzaq, dərin qatlarından bu günə gələn yolda biganələrə bir üsyandır. Professor Maarifə Hacıyeva yazır: “Şeirlərində “vətəndaş” və “biganə” təzadlarını ustalıqla qələmə alan Xanəli Kərimlinin poeziyasında ana dilinə, yaşadığı Vətən torpağına sonsuz sevgi var. Şair bu hisslərə yad olan biganələrə üz tutur:

*Vətən əmanətdir nəsilbənəsil,*
*Odur hər millətin ən şah əsəri,*
*Vətənsiz millətin, Vətənsiz elin*
*Bir nimdaş həsirtək yoxdur dəyəri”.*

Bu da Xanəli Kərimlinin sözləridir: – Ustad Məmməd Araz deyirdi ki, Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı. Bu gün Naxçıvanda yaşayıb-yaradan şairlərin yaradıcılığında, mən bunu cəsarətlə deyirəm, vətənpərvərlik hissi ölkəmizin digər regionları ilə müqayisədə daha yüksəkdir. Niyə, bunun səbəbi nədir? Çünki Naxçıvan, tarixən diqqətçəkən bir yer olub. Bu da insanlarımıza vətənpərvərlik hissi, mübarizlik aşılayıb. İllərdir ki, Naxçıvan blokada şəraitindədir. Bütün bunların hər biri şair düşüncəsinin dərin qatlarına hopub. Bu, təkcə mənim taleyimdə yox, Naxçıvanda yaşayıb-yaradan, az-çox sözə sahib olmaq istəyən yaradıcı adamların hamısında var. Əgər şair sıxılmırsa, şairi sıxan, narahat edən bir qüvvə yoxdursa, o, dolğun düşünməyi də bacarmayacaq.

Şair öz zamanında nəyisə yerinə qoymaqdan ötrü düşünür ki, cəmiyyət üçün faydalı bir iş görə bilsin. Bu düşüncə onun daxili dünyasından gəlir, o, bunu nəyinsə xatirinə etmir, görəcəyi işi doğma Vətən üçün edir. Şairsə bunu şeirləri ilə bacarır. Mən bir daha vurğulayıram ki, Naxçıvan ədəbi mühiti Vətənə bağlılıqdan, naxçıvanlı xarakterindən doğur. Böyük öndərimiz Heydər Əliyev də deyirdi: ***“Naxçıvanlıların xarakteri ətrafdakı sərt qayalar, dağlar kimidir”.*** Yəni bu sərt qayalar və dağlar adamlara dözüm və səbir verir.

...Yadıma bir dəfə ona verdiyim sual düşür: – Sizin üçün bədii ədəbiyyat və konkret olaraq poeziya nə deməkdir?

– Ədəbiyyat insan adlı sirli planetin ətrafında fırlanan peykə bənzəyir. Bu peyk həm insan planetindən bəhrələnir və bəhrələndirir. Bədii ədəbiyyata təkcə söz sənəti kimi baxmaq düzgün deyil. Bədii ədəbiyyat həm də böyük elmi kəşflərin yaranması üçün çox vaxt stimul olmuşdur. Başqa sözlə desək, təbiət və kainat sirlərinin elmi kəşfinə gedən yol bədii kəşflərdən də yan keçməmişdir.

Poeziya nədir? – sualına cavab tapmaq Allah kimdir, yaxud nədir? – sualına cavab axtarmaq qədər çətin və müşküldür. Çünki nə poeziyanın, nə də Allahın bu çağa qədər konkret tərifi verilməyib. Ona görə ki, istər poeziya, istərsə də Allah öz böyüklüyünə və əzəmətinə görə olduğu kimi dərk olunan deyil. Bəlkə, Allahın insan duyğularında, hiss və düşüncəsində yaratdığı möcüzənin adı poeziyadır. İnsan duyğu və düşüncələri də intəhasız və sonsuz olduğundan bu möcüzə, eyni zamanda rənglərin, səslərin, cansız daşların dili ilə özünü bəyan etdirir. Əcəminin Möminə xatın, Səttar Bəhlulzadənin əsrarəngiz tabloları, Ömər Eldarovun daş heykəlləri, Üzeyir Hacıbəyovun musiqi dünyası, Məhəmməd Füzulinin söz dünyası ... bir vahid, müştərək ad altında birləşir: poeziya. Nə qədər mübahisəli görünsə də, deməliyəm: Şeir poeziyanın bir növüdür. Poeziya isə fəlsəfənin ilkin qida mənbəyidir, poeziyasız fəlsəfə yoxdur. Sözlərdə ahəng olduğu kimi, poeziyada da mükəmməl bir ahəng qanunauyğunluğu var. Əgər sözlərdə eynicinsli saitlərin bir-birini izləməsinə ahəng qanunu deyilirsə, şeirdə, geniş mənada poeziyada hər misradakı sözlərin, hər bənddəki misraların, hər şeirdəki bəndlərin arasında hər cəhətdən ciddi bir ahəngdarlıq olmalıdır ki, bu da şeirin əbədiyaşarlığı üçün başlıca stimuldur. Başqa cür desək, ahəngdarlıq şeirin elmiliyidir... Ancaq min təəssüf ki, özüm bu qanunauyğunluğa bir çox hallarda əməl edə bilmirəm. Bu da ondan irəli gəlir ki, yaradıcılıq da insan kimi azadlıq sevir, sərbəstlik istəyir. Yaradıcılıq elə bir qarşısı alınmayan qüvvədir ki, onun qarşısında sənətkar arzusu hüdudsuz görünür.

***P.S.*** Xanəli müəllimin yaradıcılığından danışan ədəbiyyatşünaslar, oxucuları onun şeirlərində, ilk olaraq diqqəti çəkən səmimiyyətdən bəhs edirlər... Filosof-alim Sabir Bəşirov isə bu xüsusda deyir: Xanəli Kərimli şəxsiyyət kimi sadə, səmimi, təbiidir – olduğu kimi görünən insandır. Onun poeziyası da belədir – sadə, səmimi və təbii... Sadə, səmimi və təbii olan vətəndaşlıq poeziyası:

*Bu da bir ömürdür-bir çay ömürü,*
*Astarı üzümdür, üzüm də astar.*
*Sən, ey kölgəmi də qılınclayan kəs,*
*Məni özgədə yox, özümdə axtar.*

✍ **Muxtar MƏMMƏDOV**

## Yaradılan şərait uğurları daha da artırmağa imkan verir



***Naxçıvan şəhərindəki Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi fəaliyyət göstərdiyi dövrdə zəngin təcrübə qazanmış, bir çox uğurlara imza atmış məktəblərdən biridir. 1990-cı ildən Bülbül adına uşaq musiqi məktəbi kimi fəaliyyətə başlayıb. 2002-ci ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə məktəb ədəbi-bədii, musiqi və boyakarlıq sənətinin inkişafında rolu, Azərbaycan xalq mahnılarının və folklorunun toplanması və tədqiqi sahəsində xidmətləri olan Ərtoğrol Cavidin adını daşıyır.***

Təhsil müəssisəsi üçün yeni bina inşa olunub və 2013-cü il yanvarın 24-də istifadəyə verilib. Məktəbin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Əbülfət Babayev Ali Məclis Sədrinin açılış mərasimində müəllimlərlə görüşü zamanı dediyi sözləri xatırladaraq bildirdi ki, muxtar respublika rəhbərinin tapşırıq və tövsiyələri pedaqoji kollektivin iş prinsipinə çevrilib: ***“Azərbaycan milli musiqisi zəngin bir xəzinədir. Bu xəzinəni qoruyub gələcək nəsillərə çatdırmaq bu gün ən ümdə vəzifələr sırasındadır. Hazırda muxtar respublikamızın musiqi məktəblərində təhsil alan şagirdlər milli musiqimizin yaşadılması və gələcək inkişafının təminatçılarıdır. Ona görə də şagirdlərə musiqi sahəsində yüksək təhsil verilməli, Azərbaycan xalq musiqisi uşaqlara yüksək səviyyədə öyrədilməli, onların istedadının üzə çıxarılması və inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməlidir”.***

340 şagird yerlik ikimərtəbəli binada musiqi və sənətkarlıq dərslərinin hərtərəfli tədrisi üçün lazımi şərait var. Müasir avadanlıqlarla təchiz olunan sinif otaqları, kitabxana və konsert zalı müəllim və şagirdlərin istifadəsinə verilib. Ərtoğrol Cavidə həsr olunan fotoguşənin yaradılması isə mədəni irsimizə verilən önəmin ifadəsidir.

Müsahibim onu da bildirdi ki, məktəbdə xalq çalğı alətləri, fortepiano, simli alətlər, rəsm və nəzəri fənlər şöbələri fəaliyyət göstərir. Həmin şöbələrdə tar, kamança, nağara, fortepiano, skripka, qarmon, klarnet, fleyta, rəsm, qanun və xanəndəlik ixtisasları öyrədilir.

Məktəbin kitabxanasında 700-ə yaxın tədris vəsaiti toplanıb. Müəllim və şagirdlər burada Azərbaycan, eləcə də dünya musiqi nəzəriyyəçilərinin, görkəmli bəstəkarların əsərlərindən ibarət kitablardan istifadə edirlər.

Rəssamlıq şöbəsində xüsusi istedada və əl qabiliyyətinə malik olan şagirdlər təhsil alırlar. Dərslərin peşəkar müəllimlər tərəfindən tədrisi şagirdlərin keçirilən müsabiqələrdə uğurlar qazanmasına imkan verib.

Öyrəndik ki, məktəbdə görkəmli sənətkarlarla tez-tez görüşlər təşkil edilir. Bu da şagirdlərin dünyagörüşünün artmasına, təhsilin keyfiyyətinin yüksəldilməsinə təsir edən amillərdən biridir. Ötən illərdə Azərbaycan Respublikasının Xalq artisti, Əməkdar incəsənət xadimi Tofiq Bakıxanovla keçirilən görüşlər müəllim və şagirdlərə xoş əhval-ruhiyyə bəxş edib. Həmin görüşlərdə görkəmli bəstəkarın əsərləri müəllim və şagirdlər tərəfindən ifa olunub. Həmçinin Azərbaycan Respublikasının Xalq artistləri Ramiz Quliyev, mərhum Ramiz Zöhrabov və Əməkdar artistlər Zakir Mirzəyev, Nuriyyə Hüseynova ilə təşkil edilən görüşlər də yaddaqalan olub.



Məktəbdə 336 şagirdin musiqi təhsili ilə 70 müəllim məşğul olur. Müəllimlər uşaqların istedad və bacarıqlarının üzə çıxarılmasına, düzgün istiqamətləndirilməsinə qayğı ilə yanaşırlar. Şagirdlərin müxtəlif festivallarda, məktəbin hesabat və ənənəvi bayram konsertlərində müvəffəqiyyətli çıxışları müəllimlərin çəkdikləri zəhmətin hədər getmədiyindən soraq verir. 2009-cu ildə bu təhsil müəssisəsi musiqi məktəbləri arasında keçirilən “İlin məktəbi” müsabiqəsinin qalibi olub. Ali və orta ixtisas musiqi təhsili verən məktəblərə qəbul imtahanlarında qazanılan uğurlu nəticələr də məktəbdə tədrisin yüksək səviyyədə qurulmasının göstəricisidir. Belə ki, ötən dərs ilində məktəbi bitirən 13 məzun imtahanlarda yüksək nəticə göstərərək tələbə adını qazanıb.

Məktəbin müəllimlərindən Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Məmmədəli Babayev və Əməkdar müəllim Nərminə Qədimova ilə söhbət zamanı dedilər ki, pedaqoji kollektivimizin əsas məqsədi tədrisin keyfiyyətini yüksəltmək və istedadlı gənclər yetişdirməkdir. Bunun üçün müasir iş üsullarından istifadə edir, işimizə məsuliyyət hissi ilə yanaşırıq. Uğurların qazanılmasında dövlətimiz tərəfindən yaradılan şəraitin təsiri böyükdür, çəkdiyimiz zəhmət də bəhrəsini verir.

Müəllimin əməyi onun hazırladığı şagirdlərin səviyyəsinə görə qiymətləndirilir. İstedadlı şagird isə müəllimin fəxridir. Bu baxımdan da müəllimlərin ağır zəhmətinin bəhrəsi kimi onların yetirmələrinin əldə etdiyi nailiyyətləri qeyd etmək lazımdır. Onlardan Ülvi Əhmədov, Sevinc Babayeva, Sevindik Rzayev, Elvin Novruzov, Mehman Tağıyev və başqaları ölkə və muxtar respublika səviyyəli konsertlərdə, müsabiqələrdə uğurla çıxış edirlər.

Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin pedaqoji kollektivi qazandıqları nailiyyətləri son hədd saymır, daha yüksək uğurlar əldə etmək üçün əzmlə çalışır. Bu da belə deməyə əsas verir ki, qarşıdakı illərdə məktəbin uğurları daha da çox olacaq.

✍ **Nail ƏSGƏROV**

***Azərbaycan etnoqrafiyasında xalq təqviminin özünəməxsus yeri vardır. Əkinçi və maldar babalarımız tarixən təbiət hadisələrini izləyib, təbiətdə baş verən dəyişiklikləri, məişətdə görüləcək işlərə uyğun hər il təkrarlanan bir təqvim hazırlayıblar. Bu təqvimə əsasən əlamətdar günlər xalq bayramına, el şənliyinə çevrilib. Xalq özü bu mərasimlərin həm təşkilatçısı, həm yaradıcısı, həm də tamaşaçısı olub. Xalq yaradıcılığından qaynaqlanan bu folklor nümunələri, etnoqrafik bilgilər empirik yolla nəsildən-nəslə ötürülüb, min illər boyu yaşayıb. İnsanlar bəzən bu adətləri dini inanclarla əlaqələndirirlər. Lakin etnoqrafik tədqiqatlar sübut edir ki, bu mərasimlərin heç bir dini inancla əlaqəsi yoxdur. Bu cür mərasimlərin keçirilməsi ən çox qış aylarında baş verir. Bu isə təsadüfi deyildir. Payızın son günlərindən başlayaraq təsərrüfat işlərindən azad olan insanlar vaxtlarını səmərəli keçirməyə çalışıblar.***

*Adət-ənənələrimiz*

## Çillə, Səddə və Xıdır Nəbi bayramları etnoqrafiyamızda xüsusi yerə malikdir

Noyabr ayında vaxtilə təntənəli keçirilən, lakin unudulmuş Azərbaycan bayramlarının ayinlərini qoruyub saxlayan insanlar Kövsəc, dekabr ayında isə Çillə bayramlarını qeyd ediblər. Yanvar ayının sonunda, bayrama 50 gün qalmış Səddə bayramı keçirilərdi. Səddə bayramı haqda günümüzə çox az məlumat gəlib çatıb. Bəzi tədqiqatçılar bu mərasimin mentalitetimizə uyğun olmadığını, ona görə də unudulduğunu söyləyirlər. Bizə elə gəlir ki, bu mərasim Zərdüşt dini ilə, odla, xüsusən xürrəmilərlə bağlıdır.

Mənbələrin məlumatlarına görə, ta qədimdən Səddə bayramında meydanda ümumi tonqal yandırar, tonqal ətrafında əl-ələ tutub kütləvi rəqs edər, "Novruza 50, biçinə 150 gün qaldı", – deyərmişlər. "Səddə" sözünün "səd" sözündən yarandığına, qış ilə yay arasında tonqaldan sərhəd çəkməyə işarədir. "Biçinə 150 gün qalmaq" ifadəsi, çox güman ki, Naxçıvanla bağlıdır. Çünki Azərbaycanın aran zonasında iyunun əvvəli, Naxçıvanda isə iyulun əvvəlində taxıl biçininə başlanılır.

Xalqımız həm böyük, həm də kiçik çilləni təntənəli qeyd edir. İnsanlar böyük çilləni rəhmli, qarlı, bərəkətli sayırlar:

*Böyük çillə, nar çillə,*
*Ağ gül üstə qar çilə.*
*Buğdalara yorğan ol,*
*Bağçalara bar çilə.*

Kiçik çilləni isə amansız, sərt hesab etmişlər. Kiçik çilləyə şeirlər qoşmuş, çillə adına amansız sözlər uydurmuşlar:

*Kiçik çillə, vay çillə*
*Qarlı, dumanlı çillə.*

Aşıq Molla Cuma çillə haqqında belə yazır:

*Durubsan meydanda özünü çəkib,*
*Bu meydanda mən aslanam, sən nəsən?*
*Girərəm ortaya qaş-qabaq töküb,*
*Çillə kimi qar salanam, sən nəsən?*

Xalq təqvimində qışda keçirilən mərasimlərdən biri də Xıdır Nəbidir. Bəzi bölgələrdə buna "Xıdır", "Xıdıra-Xıdır", "Xıdır (Xızır) İlyas" da deyirlər. Bu mərasim Naxçıvanda xüsusilə qeyd olunur. Xıdır Nəbi bayramının nə zaman keçirilməsi mübahisəlidir. Lakin bütün türk-müsəlman aləmində Xızır (İlyas Peyğəmbərin digər adı) Peyğəmbərin adı ilə bağlıdır. Xıdır Nəbi mərasimi ilə bağlı bir folklor nümunəsində deyilir:



*Xıdır Nəbi, Xıdır İlyas,*
*Bitdi çiçək, oldu yaz.*
*Mən Xıdırın quluyam,*
*Boz atının çuluyam.*

Naxçıvanlı etnoqraflar Türkan Qədirzadə, Asəf Orucov da Xıdır Nəbi ilə bağlı dəyərli məlumatlar toplamışlar. Asəf Orucov qeyd edir ki, Anadolu türklərində bayram "Hıdırellez" adı ilə may ayının 6-da, Balkanlardakı müsəlman-türk xalqları arasında isə aprel ayının üçüncü ongünlüyündə keçirilir. Türkiyənin İqdır bölgəsində isə Naxçıvanda olduğu kimi fevral ayında qeyd edilir.

Xıdır Nəbi bayramının nə vaxt qeyd edilməsi mübahisəlidir, Naxçıvan bölgəsinin müxtəlif yaşayış məntəqələrində də fərqli vaxtlarda keçirilir. Türkan Qədirzadə yazır ki, bəzi kəndlərdə Xıdır Nəbi mərasimi 3 dəfə keçirilir. Fevralın 5-i qış yarı olur, fevralın 9-u kiçik çillə yarı olur, fevralın 15-də isə Xızır anadan olduğu gün kimi qeyd edilir.

Asəf Orucov isə yazır ki, Xıdır bayramı fevralın 9-da kiçik çillənin yarısında keçirilir. Şərurun Aşağı Yaycı kəndində fevralın 5-də, Kəngərli rayonunun Çalxanqala və Təzəkənd yaşayış məntəqələrində fevralın 14-15 tarixlərində qeyd edilir.

Naxçıvan şəhəri və ətraf kəndlərdə Xıdır Nəbi kiçik çillənin ikinci cümə axşamı və ya kiçik çillənin yarı olmasına yaxın cümə axşamı keçirilir. Babək rayonunun Sirab kəndində isə Xıdır Nəbi kiçik çillənin yarısına yaxın çərşənbə axşamı (eyni çərşənbələr kimi) qeyd edilir. Mərhum professor, folklorşünas Məhərrəm Cəfərli çərşənbə günü keçirilən bayramı "bəy", cümə axşamı keçiriləni "rəiyyət Xıdır Nəbisi" adlandırırdı.

Xıdır Nəbinin keçirilmə mərasimi, demək olar ki, hər yerdə oxşardır. Adətən, Xıdıra yay dövründən hazırlıq gedir. Çətənə, küncüd, fındıq, şabalıd, noxud, püstə, badam, cəviz, ərik dənəsi, qarpız toxumu tədarük edilir və Xıdır günü qovurulur. Qovurğanın əsasını isə buğda təşkil edir. Qovurğa qarışığına kişmiş, mövüc, iydə, tut qurusu, xurma qarışdırılır.

Qovurğa, əsasən, ağ, yumşaq növ buğdadan hazırlanır. Qovurğa dəstərdə (kirkirə, əl daşı) çəkilir və ya dibəkdə döyülür, qovut hazırlanır. Qovut uzaq səfərə gedən adamlar üçün çörəyi əvəz edən yol azuqəsi kimi də istifadə edilərdi. Qovut axşam pəncərə qabağında sərili qoyulardı ki, gecə Xızır Peyğəmbər qovuta əlini və ya çəliyini vursun. Quru halda qovutu yemək çətin olduğu üçün onu yoğurarlar. Qovut yoğurmaq üçün, əsasən, doşabdan istifadə edirlər. Doşabı bal ilə də əvəz etmək olar. Heç biri olmadıqda isə şəkər şərbəti hazırlayıb şərbətlə yoğururlar.

Xıdır Nəbi və İlaxır (axır çərşənbə) mərasimlərində oxşarlıq vardır. Adətən, papaqatma (şal sallama, torba atma) hər iki bayramda təkrar olunur. Xıdır Nəbi günü uşaqlar qapıları gəzir, torba ataraq Xıdır payı toplayarlar. Bu zaman müxtəlif nəğmələr oxunur:

*Xıdıra Xıdır deyərlər,*
*Xıdıra çıraq qoyarlar.*
*Xıdıra pay yığmağa*
*Biz gəlmişik hayınan.*
*Xızır-xızır xız gətir,*
*Var dərədən od gətir.*

Uşaqlar sonra bir evə toplaşar, səhərə qədər çalıb-oynayar, şənlənərdilər.

Bir məqamı da qeyd etmək istərdik. Pay toplamaq Xıdır Nəbi mərasiminin maraqlı bir elementidir. Bu mərasimi yerinə yetirən uşaqlar məhəllələri öz aralarında bölər, qapıları döyüb torba atardılar. Bəzi ailələrdə isə Xıdır Nəbidə yumurta boyayırlar. Bu bayramda oğlan evindən nişanlı qıza, bəzən də qız evindən nişanlı oğlana, təzə gəlinlərə bayram sovqatı göndərilir. Xıdır Nəbidə də niyyət edib, qulaq falına çıxanlar olur.

Xalqımızın qədim tarixindən süzülüb gələn bu bayramlarımızın təbliğ edilməsi, gələcək nəsillərə çatdırılması vətəndaşlıq borcumuzdur.

**Zaleh NOVRUZOV**

## Android qurğuları yoluxduran DressCode troyanı virusu

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi əhalinin diqqətinə çatdırır ki, 6 fevral 2018-ci il tarixdən etibarən bir çox ölkələrdə android əməliyyat sistemi olan qurğulara DressCode troyanı virusu zərbə vurmağa başlayıb.

Android əməliyyat sistemi olan qurğularda işləyən və əsas fəaliyyəti qorunan şəbəkələrdən istifadəçilərə məxsus məlumatların oğurlanması olan DressCode troyanı 2016-cı ildə tədqiqatçılar tərəfindən aşkar edilmişdir. "Google" şirkəti isə bu məsələyə dərhal reaksiya verərək tərkibində zərərverici kodu olan yoluxmuş tətbiqetmələri Play Marketdən kənarlaşdırmışdır. Lakin insidentin üzərindən 16 ay keçməsinə baxmayaraq, DressCode troyanının silinmədiyi və fəaliyyətini davam etdirdiyi məlum olub. Mütəxəssislər hesab edirlər ki, "Google"in həyata keçirdiyi tədbirlərə baxmayaraq, hazırda virus tam olaraq 4 milyon qurğunu yoluxdura bilib. O, xakerlərin serverlərinə qoşulması üçün telefonu SOCKS protokolundan istifadə etməyə məcbur edir və bununla da, nəinki yoluxmuş qurğuya, hətta onun qoşulduğu şəbəkəyə də giriş əldə edə bilir. DressCode troyanı yoluxmuş qurğunu konkret İP ünvanlara sorğu göndərməklə robot şəbəkə kimi istifadə edir. Virus, eyni zamanda onlayn pulqablarına və bank hesablarına kiberhücumlar həyata keçirir.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiylar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi android əməliyyat sistemi olan qurğularda təhlükədən qorunmaq üçün yerli istifadəçilərə bildirir ki, DressCode troyanı virusunu aşkar etmək mümkünsüzdür və virusun mövcudluğuna şübhə yaradacaq yeganə əlamətin akkumulyatorun vaxtından tez bitməsi hesab olunur.

Elektron Təhlükəsizlik Mərkəzi istifadəçilərə şübhəli görünən proqramları yükləməməyi, cihaza android əməliyyat sistemi üçün lisenziyalı antivirus proqramı qurmağı, cihaz düzgün işləmədiyi təqdirdə, android əməliyyat sistemini silib yenidən yüklənməsini tövsiyə edir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi***

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

*Muxtar respublikamızda yanvar ayında epidemioloji vəziyyət sabit olub, zəhərlənmələr baş verməyib. İnfeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilib. Yeni doğulmuş uşaqların 302 nəfəri idarəolunan yoluxucu xəstəliklərə görə BSJ, hepatit B, poliomielit peyvəndi alıb. Ay ərzində aşkar olunan hepatit xəstəliklərinə qarşı müvafiq profilaktik tədbirlər görülüb, yoluxma mənbələri müəyyənləşdirilib və səhiyyə maarifi işi aparılıb.*

Gözəllik salonlarında, bərbərxanalarda, stomatoloji kabinələrdə, oyun zallarında sanitar-gigiyenik qaydalara əməl olunması, işlədilən alətlərin sterilizasiya edilməsi, obliqat qrup kimi işçilərin tibbi müayinələrdən keçmələri, dezinfeksiya istiqamətində müvafiq tədbirlər görülüb.

Uşaq və yeniyetmə müəssisələrində maarifləndirici və dezinfeksiya tədbirləri aparılıb, eyni zamanda kəskin respirator və digər infeksion xəstəliklərin qarşısının alınması məqsədilə bütün ictimai iaşə, ticarət, su təchizatı, sərhəd gömrük məntəqələrində profilaktik sağlamlaşdırıcı əks-epidemik tədbirlər həyata keçirilib.

Yanvar ayı ərzində Bakterioloji laboratoriya fəaliyyətini davam etdirib. 74 su, 17 yuyuntu və 1143 digər nümunələrin müayinələri aparılıb.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılıb, səhiyyə üzrə 159, təhsil üzrə 792, qidalanma sənayesi, ictimai iaşə və ticarət üzrə 98, kommunal sahələr üzrə 45, sürücülük üzrə 8 nəfər olmaqla, bütövlükdə, 1102 nəfər müayinədən keçib.

Sanitariya-kimyəvi laboratoriyalar şöbəsinin Qidalanma gigiyenası laboratoriyasında 3 nümunədə 11 müayinə aparılıb, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun norma daxilində olduğu, həmçinin dəmir preparatı ilə unun zənginləşdirilməsinə görə 1 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu aşkar edilib.

Kommunal gigiyena laboratoriyasında 14 nümunədə 36 müayinə, Toksikoloji, xarici mühit və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 2 nümunədə 8 müayinə aparılıb.

Əhalinin sanitariya sahəsində maarifləndirilməsi məqsədyönlü şəkildə həyata keçirilib, 41 mühazirə oxunub. Əhalinin sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən tikinti və inşaat obyektləri sanitar-gigiyenik vəziyyətə görə yoxlanılıb, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün xəbərdarlıqlar edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## İdmançılarımız 8 medal qazanıblar

***Bakı şəhərindəki Hövsan Olimpiya-İdman Kompleksində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Pankration, Qrappling və MMA Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən pankration, qrappling və MMA üzrə Bakı şəhər açıq çempionatı başa çatıb.***

Yarışda paytaxt idmançıları ilə yanaşı, bölgə təmsilçiləri, eyni zamanda Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının yetirmələri də mübarizə aparıblar.

İki gün davam edən çempionatda idmançılarımız 8 müxtəlif əyarlı medal qazanıblar. Belə ki, 14-15 yaşlı idmançılar arasında Fərid Məhərrəmov həm pankration, həm də qrappling növlərində bütün rəqiblərini məğlub edərək 2 qızıl medal əldə edib. Pankration növündə 12-13 yaşlı idmançıların yarışında mübarizə aparan Mirməhəmməd Seyidov da muxtar respublikaya qızıl medalla qayıdıb. Bu növdə Oğuz Məmmədli (8-9 yaş) bürünc medal qazanıb.




MMA və qrappling idman növlərində isə idmançılarımız 4 medal əldə ediblər. Belə ki, Rəzzaq Əliyev, Fərid Əliyev, Orxan Həsənov və Ayxan Həsənov çempionatın üçüncüsü olublar.

Sonda yarışın qaliblərinə müvafiq dərəcəli diplomlar verilib, onlara xatirə hədiyyələri təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 122